| INTER PROJECT | **İnteqrasiya Olunmuş İdarəetmə Sisteminin Peşə Sağlamlığı və Təhlükəsizlik üzrə Siyasəti** | Sənəd No:IP-IMS-QA-SP02<br>Re:00<br>Tarix : 01.02.2024 |
|---|---|---|

**"INTER PROJECT" QSC** öz iş fəaliyyətində Azərbaycan Respublikası qanunvericiliyini, müvafiq yerli və beynəlxalq norma və standartları, həmçinin öz Nizamnaməsini rəhbər tutaraq məhsul və xidmətlərini *"yüksək keyfiyyət və təhlükəsiz əmək şəraiti"* müddəalarını əsas tutmaqla təqdim edir.

Bununla bağlı aşağıdakı məsələlər daim diqqət mərkəzindədir:

- Maraqlı tərəflərin ehtiyac və gözləntilərinin öyrənilməsi, təhlili, qiymətləndirilməsi və uyğunluğun təmin edilməsi məqsədi ilə öhdəliklərin müəyyən edilməsi və onların əsasında məqsədlərin təyini və icrasının təmin edilməsi, maraqlı tərəflərin məmnunluğunun arzu olunan səviyyəsinin təmin edilməsi;
- İş fəaliyyətinin icrasının düzgün planlaşdırılması, təşkili və nəzarət tədbirləri vasitələri ilə resursların effektiv və səmərəli istifadəsi;
- İş sahələrində texniki təhlükəsizlik və istehsalat təhlükəsizliyi (risk menecment) ilə bağlı qayda və normaların tətbiqi və onlara riayət olunmasını işçi heyətindən, podratçı/subpodratçı və sair tərəfdaş təşkilatlardan tələb olunması və yerinə yetirilməsinə nəzarətin təmin edilməsi;
- İnteqrasiya Olunmuş İdarəetmə Sistemi çərçivəsində peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sisteminin ISO 45001:2018 beynəlxalq standartının tələblərinə uyğun qurulması, tətbiqi və davamlı təkmilləşdirilməsi;
- Fərdi mühafizə vasitələrinin və yeni istehsal texnologiyalarının tətbiqi ilə peşə xəstəliklərinin, zədələnmə hadisələrinin, qəzaların yaranma risklərinin azaldılmasının təmin edilməsi;
- Potensial qəza və fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün ayrılan qüvvə və vasitələrin, habelə bütün işçi heyətinin zəruri hazırlıq səviyyəsinin təmin edilməsi. Baş vermiş hadisənin təsirinin azaldılması və fəsadlarının aradan qaldırılmasının təmin edilməsi;
- Fəaliyyət nəticələrinin yaxşılaşdırılması məqsədilə İS-in yararlılığının, adekvatlığının və effektivliyinin davamlı olaraq təkmilləşdirilməsi tədbirlərinin planlanması və yerinə yetirilməsinin təmin edilməsi, zəruri resurslarla təminatın həyata keçirilməsi, habelə daxili kommunikasiya imkanlarını genişləndirərək, hər bir işçinin aidiyyatı prosesin qurulmasında, risklərin təyin edilməsində və qiymətləndirilməsində, tətbiqində və inkişafında aktiv iştirakının təmin edilməsi.

**"INTER PROJECT" QSC-nin Direktoru** **İlqar Rəhimov**

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ INTER PROJECT CLOSED JOINT-STOCK REPUBLIC OF AZERBAIJAN